# MƏXFİLİK SİYASƏTİ

Hazırkı şəxsi məlumatların Məxfilik siyasəti (bundan sonra "Məxfilik siyasəti") İstifadəçi tərəfindən "Gmoji App" aplikasiyasına (bundan sonra "Aplikasiya") əlavə etdiyi məlumatlara tətbiq olunur. Aplikasiyadan istifadə etmə İstifadəçinin hazırkı Məxfilik siyasəti və onda göstərilən şəxsi məlumatların emal edilmə şərtləri ilə qeyd-şərtsiz razı olması anlamına gəlir; bu şərtlərlə razı olmadığı təqdirdə, İstifadəçi Aplikasiyadan istifadə etməkdən imtina etməlidir.

## 1. ƏSAS ANLAYIŞLAR

1.1. Hazırkı Məxfilik siyasəti çərçivəsində şəxsi məlumat dedikdə aşağıdakılar anlaşılır:

1.1.1. Aplikasiyadan istifadə zamanı İstifadəçi tərəfindən özü haqqında sərbəst şəkildə təqdim edilən məlumatlar, o cümlədən İstifadəçinin şəxsi məlumatları. Digər məlumatlar İstifadəçi tərəfindən öz mülahizəsinə əsasən təqdim edilir.

1.1.2. Aplikasiyadan istifadə zamanı İstifadəçinin cihazında quraşdırılmış proqram təminatı vasitəsilə avtomatik ötürülən məlumatlar, o cümlədən İstifadəçi tərəfindən istifadə olunan IP-ünvan, kuki fayllarının məlumatları, avadanlığın və proqram təminatının texniki göstəriciləri və Aplikasiyaya daxil olma tarixi və vaxtı.

1.2. İstifadəçinin Şəxsi məlumatlarının emal edilməsi Azərbaycan Respublikasının ərazisində həyata keçirilir.

## 2. İSTİFADƏÇİLƏRİN ŞƏXSİ MƏLUMATLARININ EMAL EDİLMƏSİ MƏQSƏDİ

2.1. Qanunvericiliklə müəyyən edilmiş müddət ərzində məxfiliyinin qorunması tələb olunan fərdi məlumatlar istisna olmaqla, Aplikasiya yalnız Aplikasiyanın istifadəsi zamanı zəruri olan şəxsi məlumatları toplayır və saxlayır.

2.2. İstifadəçinin şəxsi məlumatları Aplikasiya tərəfindən aşağıdakı məqsədlər üçün emal edilir:

2.2.1. Aplikasiyadan istifadə edən İstifadəçinin eyniləşdirilməsi;

2.2.2. Aplikasiyadan istifadə məqsədləri üçün İstifadəçinin olduğu yerin müəyyən edilməsi;

2.2.3. Aplikasiyadan istifadə olunması ilə əlaqədar olaraq bildirişlərin, sorğuların göndərilməsi, həmçinin Aplikasiyada saxlanılmış sorğu əsasında məlumatların göndərilməsi daxil olmaqla təkrar qoşulmanın yaradılması;

2.2.4. İstifadəçi üçün aktual məlumatın yaranmasına dair İstifadəçini məlumatlandırmaq.

## 3. İSTİFADƏÇİLƏRİN ŞƏXSİ MƏLUMATLARININ İSTİFADƏSİ VƏ ONLARIN ÜÇÜNCÜ ŞƏXSLƏRƏ ÖTÜRÜLMƏSİ ŞƏRTLƏRİ

3.1. Aplikasiya yalnız hazırkı Məxfilik siyasətində göstərilən məqsədlər üçün şəxsi məlumatları toplayır.

3.2. İstifadəçi tərəfindən şəxsi məlumatların qeyri-məhdud şəxslər dairəsinin ümumi istifadəsinə könüllü çıxış təqdim edilməsi halları istisna olmaqla, İstifadəçinin şəxsi məlumatlarının konfidensiallığının qorunması təmin edilir.

3.3. Aplikasiya şəxsi məlumatları üçüncü şəxslərə ötürmür.

3.4. Məlumat sistemlərində avtomatlaşdırma vasitələrindən istifadə etməklə və ya belə vasitələrdən istifadə etmədən İstifadəçinin şəxsi məlumatlarının emalı istənilən qanuni yolla heç bir vaxt məhdudiyyəti qoyulmadan həyata keçirilir. İstifadəçilərin şəxsi məlumatlarının emalı 11 may 2010-cu il tarixli 998-IIIQ nömrəli “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanununa əsasən həyata keçirilir.

3.5. Şəxsi məlumatların itirilməsi və ya yayılması halında «Gmoji.az» MMC bu barədə İstifadəçini məlumatlandırır.

3.6. «Gmoji.az» MMC İstifadəçinin şəxsi məlumatlarının qeyri-qanuni və ya təsadüfi müdaxilədən, məhv olmadan, bloklanmadan, surətçıxarmadan, yayılmadan, həmçinin üçüncü şəxslərin digər qeyri-qanuni hərəkətlərindən qorunması üçün zəruri olan təşkilati və texniki tədbirləri həyata keçirir.

## 4. ƏLAVƏ ŞƏRTLƏR

4.1. «Gmoji.az» MMC hazırkı Məxfilik siyasətinə İstifadəçinin razılığı olmadan əlavələr etmək hüququna malikdir.

4.2. Hazırkı Məxfiik siyasəti İstifadəçi tərəfindən Aplikasiyanı istifadə etmək üçün zəruri olan məlumatlara Aplikasiya üçün çıxış verdiyi andan qəbul edilmiş hesab edilir. Çıxış İstifadəçinin telefonunun tənzimləmələr bölməsində müvafiq seçimin edilməsi ilə təqdim edilir. Məlumatlara çıxışın təqdim edilməsi, İstifadəçi tərəfindən Aplikasiya üçün İstidadəçinin şəxsi məlumatlarına çıxış verdiyi andan öncə açıq olan İstifadə haqqında Razılaşmanın və hazırkı Məxfilik siyasətinin bütün şərtləri ilə İstifadəçinin qeyd-şərtsiz razılığı anlamına gəlir.

4.3. Yeni Məxfilik siyasəti Aplikasiyaya əlavə edildiyi andan qüvvəyə minir.

4.4. Hazırkı Məxfilik siyasətinə dair bütün təkliflər və suallar support@gmoji.az elektron poçtuna ünvanlanmalıdır.

4.5. Hazırkı Məxfilik siyasəti İstifadəçi razılaşmasının ayrılmaz tərkib hissəsidir.

Qəbul tarixi: 01 oktyabr 2019-cu il